UOT 32

**Elgün SƏFƏROV**
*hüquq ü.f.d., A R Ailə, Qadın və
Uşaq Problemləri üzrə DK, şöbə müdiri*

# BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ 2030 DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİ VƏ GENDER BƏRABƏRLİYİ*

Ulu öndər Heydər Əliyev ölkədə insan hüquqları sisteminin yaradılmasına hər zaman dəstək olmuşdur. İnsan hüquqlarının müdafiəsi istiqamətində Heydər Əliyevin qərarı ilə İnsan hüquqları üzrə Müvəkkil vəzifəsi (Ombudsman) təsis edilmişdi, Qadın məsələləri üzrə Komitə fəaliyyətə başlamışdı, yüzdən çox beynəlxalq konvensiyalar ratifikasiya edilmişdi, minlərlə normativ-hüquqi akt qəbul edilmişdi, milli qanunvericilikdə insan hüquqları əsasları həqq edilmişdi. Və həmin istiqamət üzrə fəaliyyətini davam etdirən Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin siyasi dəstəyi əsasında Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi istiqamətində vacib nailiyyətlər əldə edilmişdir. Xüsusilə Birləşmiş Millətlər Təşkilatı çərçivəsində ölkənin fəaliyyəti təqdirəlayiqdir.

Azərbaycan Birləşmiş Millətlər Təşkilatının fəal üzvüdür.

2011-ci ildə Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi. 155 ölkə Azərbaycana səs verdi. Üzv dövlətlərin tam əksəriyyəti Azərbaycana və onun siyasətinə öz dəstəyini nümayiş etdirdilər. Həmin vaxt cəmi 20 yaşı olan ölkə üçün bu, böyük nailiyyət oldu. Azərbaycan müasir, sabit və demokratik ölkədir. Demokratiyanın inkişafı və insan hüquqlarının müdafiəsi hökumətimizin əsas prioritetlərindəndir. Azərbaycanda bütün fundamental azadlıqlar, o cümlədən ifadə, mətbuat, yığıncaq və dini azadlıqlar tam şəkildə təmin edilir" (BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışında Azərbaycan Respublikası Prezidentinin cənab İlham Əliyevin nitqindən (1).

Yuxarıda qeyd edilən Azərbaycanda müasir insan hüquqları sisteminin yaradılması və təkmilləşdirilməsi məqsədilə əsrlər lazım olub.

İnsan hüquqlarının müdafiəsi mexanizmi yalnız XX əsrin ikinci yarısında formalaşdırıldı. II Dünya müharibəsi, milyonlarla qətlə yetirilən insanlar, dağılmış şəhərlər və diqər səbəblər universal təşkilatın yaradılmasına təkan verdi. Birləşmiş Millətlər Təşkilatının yaradılması və Ümumdünya İnsan hüquqları Bəyannaməsinin qəbul edilməsi (1948) bütün dövlətlərdə insan hüquqlarının müdafiəsi prinsipinin inkişafına dəstək oldu. Beləliklə də, müasir insan hüquqları mexanizminin formalaşdırılmasına əsas qoyuldu.

Sonradan BMT çərçivəsində 1966-cı ildə İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın (3 yanvar 1976-cı ildə qüvvəyə minmişdir) və Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt (23 mart 1976-cı ildə qüvvəyə minmişdir) qəbul edilməsi beynəlxalq insan hüquqları müdafiə sistemin inkişafını təmin etdi.

Eyni zamanda bu və digər paktların qəbulu və qüvvəyə minməsi ətraf mühitin qorunması, beynəlxalq humanitar hüququn inkişafı, beynəlxalq kosmik hüququn yaradılması, regional təşkilatların yaradılması və inkişafı (Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digərləri) və digər sahələr üzrə beynəlxalq insan hüquqları mexanizminin inkişafına təkan verdi.

---

* Məqalə fəlsəfə ü.f.d.,dos.Zeynəddin Şabanov tərəfindən çapa məsləhət görülüb.

Beynəlxalq insan hüquqları mexanizminin yeni istiqamətləri üzrə, məsələn, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində də vacib müqavilələr qəbul edilmişdir.

BMT-nin Qadınlara qarşı ayrı - seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyası (1979-cu il tarixli qətnaməsi ilə qəbul edilmiş, 3 sentyabr 1981-ci ildə qüvvəyə minmişdir), ümumiyyətlə, qadın hüquqlarının müdafiə sisteminin əsasını qoydu. Konvensiyaya əsasən dövlətlər milli qanunvericilikdə Konvensiyada olan maddələri əks etdirməlidirlər və normaların icrasını təmin etməlidirlər. Konvensiya insan alverinə, məişət zorakılığına, uşaq nikahlarına qarşı mübarizəni tənzimləyir.

Eyni zamanda, Beynəlxalq Konvensiyada analığın mühafizəsi, qadınların təhsil, sosial, ədliyyə, mədəni, məşğulluq və digər sahələrdə bərabər əsaslarla hüquqlarını müəyyən edir. Bu Konvensiyada uşaq hüquqlarının müdafiəsi qismən bir neçə maddədə əks olunur.

Yalnız uşaq hüquqlarının müdafiəsi Uşaq Hüquqları Konvensiyası ilə tənzimlənir (20 noyabr 1989-cu il). Uşaq Hüquqları Konvensiyası – BMT tərəfindən qəbul edilmiş bir müqavilə olaraq, dünyanın hər bir yerində yaşayan uşaqlara konvensiya ilə müəyyən edilmiş hüquqları təmin edir, uşaqların ayrı-ayrı sahələrdə hüquqlarını müdafiə edir.

Konvensiyanı ratifikasiya etmiş bütün dövlətlər bu öhdəlikləri yerinə yetirməlidirlər. Onlar daimi xüsusi təşkil edilmiş Uşaq Hüquqları Komitəsinə hesabat və həyata keçirdikləri bütün işlər haqqında məlumat verməlidirlər. Bu Konvensiya uşaqların hüquqlarını təmin edən birinci universal "məcəllədir".

Konvensiya uşaqların iqtisadi, sosial, mədəni və hətta siyasi hüquqlara malik olmasını vurğulayır. Əsasən, uşaq hüquqlarının qeyri-formal tədris prosesi vasitəsilə öyrədilməsi üçün yazılmasına baxmayaraq, bu vəsait çox asanlıqla və müvəffəqiyyətlə məktəblərdə də istifadə edilə bilər. Giriş hissədən sonra Konvensiya tərəfindən qorunan hüquqlar 4 kateqoriya üzrə bölünür.

Yuxarıda sadalanan konvensiyalar insan hüquqları müdafiə sisteminin yalnız bir neçə faizini əks etdirir. Ümumdünya insan hüquqları Bəyannaməsində əks olunan 30 maddənin hər birinə uyğun olaraq hətta bəzi hallarda hər maddəyə bir neçə beynəlxalq konvensiya qəbul edilib və dövlətlər tərəfindən həyata keçirilir.

Beynəlxalq hüququn sonrakı inkişafı ayrı-ayrı insan hüquqlarına həsr olunmuş müqavilələrin bağlanması və insan hüquqları sahəsində beynəlxalq mexanizm və prosedurların inkişaf etdirilməsi və təkmilləşdirilməsi ilə əlamətdardır. Bu gün beynəlxalq insan hüquqları beynəlxalq hüququn ən intensiv inkişaf edən sahəsidir.

Və bunun nəticəsi olaraq insan hüquqları sistemində yeni nəsil hüquqların formalaşması və inkişafı dövlətlərin milli qanunvericiliyinin təkmilləşdirilməsinə təsir etmişdir. Kibercinayətkarlıqla, dini radikalizmlə, sektalarla mübarizə ölkələrin birləşməsinə və birgə fəaliyyətlərin aparılması ikitərəfli və çoxtərəfli müqavilələrin bağlanmasına səbəb oldu.

Yeni texnologiyaların yaradılması, süni intellektin proqramlaşdırılması, alternativ enerji imkanlarından istifadə və digər texnoloji yeniliklər dünyanın tərəqqisinə təkan verir.

İnsanların internet resurslarından istifadə hüququ, şəxsi məlumatların konfidensiallığının müdafiəsi, uşaqların internetdə təhlükəsizliyinin təmin edilməsi və insan hüquqları sistemində digər yeni hüquqlar insanların həyatına təsir edir.

Yuxarıdakıları nəzərə alaraq, "Minilliyin İnkişaf Məqsədlərinin tarixdə yoxsulluğa qarşı ən uğurlu qlobal addım oldu. Hədəflərin çoxuna nail olunması yolunda əhəmiyyətli və əsaslı addımlar atılmışdır - bura kəskin yoxsulluq həddində yaşayan insanların sayının və təkmilləşdirilmiş içməli su mənbələrinə davamlı çıxışı olmayan insanların nisbətinin yarıya qədər azaldılmasında daxildir. Malyariya və vərəmə qarşı mübarizədə diqqətəlayiq uğurlar qazanılmışdır. Səhiyyənin bütün sahələrində, eləcə də ibtidai təhsildə nəzərəçarpan irəliləyiş müşahidə edilmişdir"(10).

Aclıq, ana sağlamlığı, sanitariya şəraiti və ətraf mühitin mühafizəsi kimi sahələrə nəzər salır. Hesabat həm də MİM-lərə çatmaq istiqamətində irəliləyişin ölkələr arasında, eləcə də ölkələrin daxilində bərabər olmadığını göstərir.

"MİM-lərə nail olunması istiqamətində on ildən yuxarı aparılan işlər zamanı biz öyrəndik ki, qlobal inkişaf səylərinin mərkəzləşdirilməsi fərq yaratmağa qabildir", - deyə BMT-nin Baş katibi Pan Gi Mun hesabatda bildirib. Fəaliyyətin sürətləndirilməsi yolu ilə dünya MİM-lərə nail ola və 2015-ci ildən sonrakı yüksək hədəflərə yönələn və ilhamlandırıcı inkişaf çərçivəsi üçün zəmin yarada bilər"(9).

Minilliyin Bəyannaməsinə qoşulan bir ölkə kimi, Azərbaycan Respublikasında da bu öhdəliyin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 20 fevral tarixli 854 nömrəli Fərmanı ilə "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində əldə olunan müsbət meyilləri davam etdirmək məqsədilə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" (YADİDP) hazırlanmışdır.

Minilliyin İnkişaf Məqsədləri üzrə Azərbaycanın mühüm nailiyyətlər qazandığını və hazırda milli davamlı inkişaf strategiyasının Davamlı İnkişaf Məqsədləri üzrə 2030 Gündəliyinə uyğunlaşdırıldığı proses davam etməlidir. Bu xüsusda, yeni yaradılmış Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının əsas məqsədinin 2030-cu ilədək qlobal məqsəd və hədəflərə uyğun milli prioritetləri və onlara dair göstəriciləri müəyyən etməkdən, ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramları və strategiyalarının Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılmasını təmin etməkdən ibarət olduğunu bildirib. Daimi nümayəndə, həmçinin inkişaf etməkdə olan ölkələrin üzləşdiyi humanitar və sosial-iqtisadi problemlərin qarşısının alınması istiqamətində beynəlxalq ictimaiyyət tərəfindən görülən tədbirlərdə Azərbaycan fəal rol oynayır. Azərbaycan Beynəlxalq İnkişaf Agentliyinin fəaliyyətində vacib addımlar atır.

Beləliklə, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının 2030-cu ilədək qlobal məqsəd və hədəfləri qəbul edilmişdir.

*"2015-ci ildə Azərbaycan Minilliyin İnkişaf Məqsədlərinin icrasında əldə etdiyi böyük nailiyyətinə görə həmin ilin "Cənub-Cənub" mükafatını almış və 2010-cu ildən etibarən yüksək insan inkişafı kateqoriyalı ölkələr sırasına daxil edilmişdir."*(BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin nitqindən(1).

Həmin hədəf və məqsədlər dünyada ən vacib məsələlərin həllinə istiqamətlənib:

"1. Dünyanın hər bir yerində yoxsulluq və onun bütün formalarına son qoymaq.

2. Aclığa son qoymaq, qida təhlükəsizliyinə nail olmaq və dayanıqlı kənd təsərrüfatını təbliğ etmək.

3. Sağlam həyat tərzini təmin etmək və bütün yaş kateqoriyaları üçün rifahı təbliğ etmək.

4. İnklyüziv və keyfiyyətli təhsili təmin etmək və hər kəs üçün davamlı tədris imkanlarını təbliğ etmək.

5. Gender bərabərliyinə nail olmaq, eləcə də bütün qadın və qızların səlahiyyətlərini artırmaq.

6. Hər kəs üçün su və sanitariyanın davamlı idarəetməsini və mövcudluğunu təmin etmək.

7. Hər kəs üçün əlverişli, etibarlı, dayanıqlı və müasir enerjiyə çıxışı təmin etmək.

8. İnklyüziv və dayanıqlı iqtisadi inkişafı, eləcə də hər kəs üçün tam və məhsuldar məşğulluğu təbliğ etmək.

9. Möhkəm infrastruktur yaratmaq, inklyüziv və dayanıqlı sənayeləşməni və innovasiyanı təbliğ etmək.

10. Ölkələrarası və ölkədaxili qeyri-bərabərliyi azaltmaq.

11. Şəhərləri və digər insan yaşayış məskənlərini inklyüziv, təhlükəsiz, möhkəm və dayanıqlı etmək.

12. Dayanıqlı istehlak və istehsal modellərini təmin etmək.

13. İqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə aparmaq üçün təcili addımlar atmaq.

14. Dayanıqlı inkişaf üçün okean, dəniz və digər su hövzələrini qorumaq və onlardan düzgün istifadə etmək.

15. Ekosistemlərin dayanıqlı istifadəsini müdafiə, bərpa və təbliğ etmək, meşələri dayanıqlı idarə etmək, səhralaşma ilə mübarizə aparmaq, torpaq deqradasiyasının qarşısını almaq və dayandırmaq, o cümlədən biomüxtəliflik itkisini dayandırmaq.




16. Dayanıqlı inkişaf uğrunda sülhsevər və inklüziv cəmiyyəti təbliğ etmək, hər kəs üçün ədaləti təmin etmək və bütün səviyyələrdə səmərəli, məsul və inklüziv institutları yaratmaq.

17. İcra vasitələrini möhkəmləndirmək və dayanıqlı inkişaf üçün qlobal əməkdaşlığı canlandırmaq”(2).

Bu məqsədlərə nail olunması üçün vacib addımlar atılmalıdır. Beynəlxalq normaların yaradılması davam etdirilməlidir, milli qanunvericilkdə implementasiya və inkorporasiya prosesləri təmin edilməli və dövlətlərarası koordinasiya gücləndirilməlidir.

Ölkədə bu proseslər dayanmadan aparılır. 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fərmanı ilə Qadın Komitəsinin əsasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdı. Həmin qərarla Qadın hüquqlarının müdafiəsinə və gender bərabərliyi prinsipinin inkişafına təkan verilmişdi. Komitənin səlahiyyətləri artırılaraq bütün qanunvericilik layihələri gender ekspertizasından keçirilir, dövlət proqramaları və milli fəaliyyət planları hazırlanır, milli qanunvericiliyə dəyişikliklər edilir.

Bu işlərin davamı olaraq, 2006-cı ildə “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanunda gender,

gender bərabərliyi, bərabər imkanlar, cinsi mənsubiyyətə görə ayrı-seçkilik, seksual qısnama kimi yeni anlayışlar öz əksini tapmışdır.

Qanunda cinsi mənsubiyyətə görə ayrı-seçkilik, seksual qısnama, gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri, gender bərabərliyinin təmin edilməsində dövlətin vəzifələri, əmək fəaliyyətində işəgötürənin vəzifələri, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin aradan qaldırılmasında işəgötürənin vəzifələri, əməyin ödənilməsində bərabərlik, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyi əks etdirən elan, seksual qısnamaya məruz qalmış işçilərə qarşı hər hansı təzyiqin yolverilməzliyi, Əmək müqaviləsinin ləğv edilməsi, təhsil hüququnun həyata keçirilməsində bərabər imkanlar, təhsil müəssisələrinin fəaliyyətində cinsi mənsubiyyətə görə ayrı-seçkilik, iqtisadi və sosial münasibətlərdə gender bərabərliyinin təminatları, siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və həmkarlar ittifaqlarının fəaliyyətində gender bərabərliyinin təminatları, zərərin ödənilməsini tələb etmək hüququ, qanunun pozulmasına görə məsuliyyət, gender bərabərliyinin təmin edilməsinə nəzarət, gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının illik məlumatı və digər məsələlər tənzimlənir.

Qanun qəbul ediləndən sonra milli qanunvericilik aktları təkmilləşdirilmişdir. Təkmilləşdirmə prosesi çərçivəsində Ailə Məcəlləsinin 10-cu maddəsində kişilər və qadınlar üçün bərabər nikah yaşı müəyyən edilmişdi (18 yaş). Bütün sahələrdə olduğu kimi, nikah münasibətlərində də hüquqi bərabərliyin təmin edilməsi demokratik cəmiyyətin vacib amillərindən biridir.

Qanun ölkədə qadın siyasətinin həyata keçirilməsin istiqamətində ən vacib indikatorlardan biridir. Bu səbəbdən qanunvericilik aktlarında normaların pozulmasına görə məsuliyyət müəyyən edilməlidir. Beləliklə də, cinsi bərabərliyinin pozulması Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 154-cü maddəsində müəyyən edilib.

154-cü maddənin 1-ci yarımbəndinə əsasən irqindən, milliyyətindən, dinindən, dilindən, **cinsindən,** mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olaraq şəxsin hüquq və qanuni mənafelərinə zərər vurmaqla şəxsin bərabərlik hüququnu pozma **min manatdan iki min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.**

Həmin maddənin 2-ci yarımbəndinə əsasən eyni əməllər vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə **iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.**

Cinayət və İnzibati məsuliyyətin qəbul edilməsi qadın hüquqlarının pozulmasının sayının azalmasına yönəldilib. Xüsusilə də hamilə qadınlara qarşı törədilən zorakılıq faktları, ağırlaşdırıcı hal kimi, Cinayət Məcəlləsində törədənə qarşı daha ağır cəza nəzərdə tutur. Son illərdə milli qanunvericilikdə xüsusi məsuliyyət normaları qəbul edilib.

Beləliklə, Cinayyət Məcəlləsinin 176-1-ci maddəsinin 1-ci yarımbəndinə əsasən qadını nikaha daxil olmağa məcbur etməyə görə iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə cəzası təyin edilir. Bu maddə qadın hüquqlarının müdafiəsinə yönəldilib. Həmin maddənin 2-ci yarımbəndinə əsasən eyni əməllər nikah yaşına çatmayan şəxs barəsində törədildikdə üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Bu maddə uşaq nikahlarının və məcburi nikahların qarşısının alınmasına yönəldilib. Qeyd etmək istəyirik ki, yuxarıda sadalanan qanunvericilik aktlarının təkmilləşdirilməsi uşaq nikahlarının sayını 10 dəfə azaltdı.

Cəmiyyətdə gender bərabərliyinin təmin edilməsində, məişət zorakılığı ilə mübarizənin gücləndirilməsində və qadın hərəkatının inkişafında ölkənin Birinci vitse-prezidenti Mehriban

xanım Əliyevanın rolu əvəzolunmazdır. Mehriban xanım Əliyevanın dəstəyi ilə 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Bu gün beynəlxalq insan hüquqları sistemində Azərbaycan Respublikası artıq öz müsbət təcrübəsi ilə bölüşür. BMT, Avropa Şurası, Avropa İttifaqının beynəlxalq konvensiyalar və sazişlərinin hazırlanmasında artıq ölkəmizin ekspertləri də yaxından iştirak edirlər. (Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyası).

Milli qanunvericiliyin təkmilləşdirilməsinə ali təhsil ocaqları alimlərinin cəlb edilməsi olduqca vacibdir. (Ölkənin insan kapitalının, insan potensialının irəli çəkilməsi). Alimlər, hüquqşünas araşdırmaçılar tərəfindən layihələrin aprobasiyası və hüquqi ekspertizadan keçirilməsi gələcəkdə normativ hüquqi aktların effektivliyini artırır və birbaşa implementasiyasına təsir edir.

Beləliklə də, milli doktrinaların formalaşdırılmasına təsir edəcək əsaslar yaradılıb. Bundan sonra məhkəmə qərarlarının və qanunvericilik aktlarının hazırlanmasına alimlərin və tədqiqatçıların cəlb edilməsi işi davam etdirilməlidir. Həmçinin insan hüquqları sisteminin təkmilləşdirilməsi davam etdirilməlidir. Cəmiyyət inkişaf etdikçə problemlər də inkişaf edir. Bunu nəzərə alaraq, milli qanunvericilikdə "elastiklik" prinsipi öz əksini tapmalıdır. Problemlərə uyğun olaraq qanunvericiliyin və beynəlxalq konvensiyaların vaxtında təkmilləşdirilməsi insanların problemlərin həllinə birbaşa təsir edir. Alimlərin isə məqsədi sağlam və inkişaf edən dövlətin qarşısına çıxan problemlərinin aradan qaldırılması yollarını göstərməkdir.

Sağlam cəmiyyətin mərkəzində inkişaf etmiş insan durur. İnsan hüquqlarının müdafiəsi ölkənin inkişafının əsasını, təməlini qoruyur.

**Açar sözlər:** insan hüquqları, mexanizm, BMT, inkişaf, qanunvericilik, uşaq hüquqları, konvensiya, Dayanıqlı İnkişaf Məqsədləri, Avropa İttifaqı, konvension normalar, qadın hüquqları.

## İstifadə olunmuş ədəbiyyat

1. http://www.president.az/articles/25289
2. https://sustainabledevelopment.un.org/?menu=1300
3. http://www.unis.unvienna.org/unis/en/pressrels/2017/unissgsm846.html
4. "Heydər Əliyev və dövlət qadın siyasəti" I kitab. Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2008.
5. Azərbaycanda qadın məsələləri (tarix və müasirlik: XIX əsrin sonu – XX əsrin əvvəli). , Bakı: "Azərbaycan" nəşriyyatı, 2006.
6. Qanunvericilik Toplusu. 2015-ci il. Bakı: "Şərq-Qərb" nəşriyyatı (Ailə Məcəlləsi, Cinayət Məcəlləsi).
7. Qadın hüquqları üzrə Bələdçi. Bakı: "Qismət" nəşriyyatı, – 2013.
8. "Gender equality and Human rights", 2015, UN Women
9. Sandra Fredman and Beth Goldblatt for Progress of the World's Women 2015-2016.
10. "Achieving Gender Equality, Women's Empowerment and Strengthening Development Cooperation". United Nations, Department of Economic and Social Affairs Office for ECOSOC Support and Coordination. 2010.
11. "Human Rights and Dynamic Humanism", Winston P. Nagan, John A.C. Cartner and Robert J. Munro, Publication Year : 2016

**Эльгюн САФАРОВ**

## ЦЕЛИ УСТОЙЧИВОГО РАЗВИТИЯ ООН 2030 И ГЕНДЕРНОЕ РАВНОПРАВИЕ


### Резюме

В статье раскрываются вопросы защиты прав человека, развития национального законодательства, формирования, совершенствования системы защиты прав человека, создания Организации Объединенных Наций, Цели в области Устойчивого Развития.Кроме того, рассматривается деятельность специализированных учреждений, а также роль Совета Европы, Европейского Союза и др. международных организаций в развитии всей системы защиты прав человека. Статья посвящена анализу программы Целей Развития Тысячелетия ООН, роли ООН в предотвращении мировых проблем, новому поколению прав человека, борьбы с голодом, насилием в отношении детей и женщин, международным конвенционным нормам.

Здесь также рассматривается деятельность Азербайджанской Республики в системе защиты прав человека, опыт страны в претворении программы Целей Развития Тысячелетия, имплементация норм международного права, трансформация национального законодательства.


**Ключевые слова:** *права человека, механизм, ООН, развитие, законодательство, права детей, конвенция, Цели Устойчивого Развития, Европейский Союз, права женщин.*

**Elgun SAFAROV**

## UN SUSTAINABLE DEVELOPMENT GOALS 2030 AND GENDER EQUALITY


### Summary

The article considers human rights history, development of the national legislation, establishment of the United Nations, international conventions, UN Sustainable Development Goals, protection of women rights, international mechanisms of the protection child rights, gender equality and another legal questions. The article describes UN Sustainable Development Goals, prevention of the worldwide problems, new generation of human rights, fighting against poverty, hunger, violence against children and women, international covenant norms.

The article highlights policy of UN, Council of Europe, European Union, legal conditions and global policy, progress of the human rights system and other items. UN Sustainable Development Goals include activities of the states and international organisations on the protection of human rights and resolving conflict situations.

The is also considered activities of the Republic of Azerbaijan in the field human rights of protection, implementation of the Sustainable Development Goals and international law, transformation of the national legislation.


**Keywords:** *human rights, mechanism, establishment of UN, development, legislation, child rights, convention, Sustainable Development Goals, European Union, woman rights.*